Tədris Mərkəzinin «1»noyabr 2016-cı il tarixli
1695040100148800 nömrəli əmrinə 1 saylı Əlavə

**Viktorinanın (yarış müsabiqəsinin) keçirilməsi**
**QAYDALARI**

## 1. Ümumi müddəalar

1.1. "Viktorinanın (yarış müsabiqəsinin) keçirilməsi Qaydaları" (bundan sonra – Qaydalar) Azərbaycan Respublikasının Vergi Məcəlləsinin, Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 29 mart tarixli 454 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Vergilər Nazirliyi haqqında Əsasnamə"nin, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2002-ci il 5 iyun tarixli 90 nömrəli qərarı ilə təsdiq edilmiş "Vergilər Nazirliyinin Tədris Mərkəzinin Əsasnaməsi"nin və digər aidiyyəti hüquqi aktların və Vergilər Nazirliyinin normativ sənədlərinin tələblərinə uyğun olaraq hazırlanmışdır".

1.2. Viktorinanın və ya yarış müsabiqəsinin (bundan sonra – müsabiqə) əsas məqsədi vergitutma sahəsində istedadlı şəxslərin müəyyən edilməsindən, onların intellektual səviyyəsinin daha da artırılmasından, eləcə də gənc nəsil arasında müvafiq maarifləndirmə, məlumatlandırma və təbliğat işinin aparılmasından ibarətdir.

## 2. Müsabiqənin iştirakçıları

2.1. Müsabiqə Vergilər Nazirliyinin Tədris Mərkəzinin təlim və tədris kurslarına cəlb edilmiş dinləyiciləri arasında keçirilir.

2.2. Tədris Mərkəzində keçirilən müsabiqədə vergi orqanlarının əməkdaşları öz müraciətləri əsasında könüllü olaraq iştirak edə bilərlər.

2.3. Müsabiqədə mərkəzi və yerli icra hakimiyyəti orqanlarının, bələdiyyələrin və təhsil müəssisələrinin nümayəndələri iştirak edə bilərlər.

## 3. İştirakçıların və təşkilatçının hüquq və vəzifələri

3.1. Viktorinanın (yarış müsabiqəsinin) iştirakçıları Vergilər Nazirliyinin Tədris Mərkəzinə təlimlərə cəlb edilmiş və vergi orqanlarının digər əməkdaşları ola bilər. İştirakçıların hüquq və vəzifələri aşağıdakılardır:

- müsabiqədə bu Qaydaların tələblərinə və şərtlərinə uyğun olaraq iştirak etmək;
- qalib gəldiyi halda, Qaydaların şərtlərinə uyğun olaraq müəyyən edilmiş pul və ya hədiyyə mükafatı almaq.
- qalib gəldiyi halda, özü ilə bağlı informasiyanı müsabiqənin təşkilatçısına vermək;

- bu Qaydalarla nəzərdə tutulmuş digər hüquq və vəzifələri yerinə yetirmək.

3.2. Viktorinanın (yarış müsabiqəsinin) təşkilatçısı Vergilər Nazirliyinin Tədris Mərkəzidir.

Təşkilatçının hüquq və vəzifələri aşağıdakılardır::

- bu Qaydaları pozmuş iştirakçıları yarışdan uzaqlaşdırmaq;
- müsabiqənin keçirilməsi ilə əlaqədar Vergilər Nazirliyinin dövri nəşrində və elektron informasiya sistemində məlumat vermək;
- müsabiqənin keçirilməsi reqlamentini müəyyən etmək;
- iştirakçıların qeydiyyatını aparmaq, müsabiqənin keçirilməsi şərtləri ilə onları tanış etmək;
- müsabiqənin keçirilməsi ilə əlaqədar təşkilati, texniki və metodiki məsələləri həll etmək;
- müsabiqənin qalibini (qaliblərini) müəyyən etmək;
- müsabiqənin nəticələri üzrə zəruri tədbirləri görmək;
- iştirakçıya (iştirakçılara) pul və ya hədiyyə mükafatını təqdim etmək;
- bu Qaydalarla nəzərdə tutulmuş digər hüquq və vəzifələri yerinə yetirmək.

## 4. Viktorinanın (yarış müsabiqəsinin) təşkili və keçirilməsi

4.1. Müsabiqənin təşkili, keçirilməsi və qaliblərinin müəyyən edilməsi üçün 3 nəfərdən ibarət münsiflər heyəti yaradılır. Müsabiqəni 1 nəfər aparıcı idarə edir.

Münsiflər heyəti müsabiqənin suallarını (testlərini) müəyyən edir. Suallar əsasən vergilərin və vergitutmanın aktual problemlərinə, qismən də iştirakçıların ümumi dünyagörüşünə həsr olunur. Hər sual üzrə düzgün cavab 1 balla qiymətləndirilir. Səhv cavab nəzərə alınmır.

4.2. Müsabiqədə iştirakçılar komanda şəklində yarışırlar. Hər komanda 3-5 nəfərdən ibarət olmaqla təşkil edilir. Komandalar təqdim edilmiş sualları 30 saniyə ərzində cavablandırmalıdırlar. Sual düzgün cavablandırılmadıqda, birinci cavab verən komanda istisna olmaqla, təkrar cavablandırmaya digər komandalara əlavə olaraq 15 saniyə vaxt verilir. Sual təkrarən düzgün cavablandırılmadıqda, sual çıxarılır və komandalara yeni sual verilir. Təqdim edilmiş suala cavab vermək üçün ən tez müraciət edən komanda suala birinci cavab verir.

4.3. Müsabiqə iki turdan ibarət olmaqla keçirilir. Birinci turda ən çox bal toplamış iki komanda finalda yarışır.

## 5. Qaliblərin müəyyən edilməsi

5.1. Müsabiqənin qalibləri yarışın son mərhələsində maksimal topladığı bal əsasında müəyyən edilir.

5.2. Əgər bir-neçə iştirakçı arasında topladığı ballar eyni olarsa, vaxt baxımından suala daha tez cavab vermiş iştirakçı qalib hesab edilir. Qalib komanda müəyyən edilmiş pul və ya hədiyyə ilə mükafatlandırılır.

## 6. Yekun müddəalar

6.1. Müsabiqənin yekunu üzrə protokol tərtib edilir.

6.2. Müsabiqənin nəticələri barədə KİV-də məlumat verilir.